# *İlham ƏLİYEV:*

# Azərbaycan vətəndaşının sosial təminatı, rifah halı və rahatlığı bizim üçün prioritet məsələdir



***Ulu öndər Heydər Əliyevin bütün ictimai-siyasi fəaliyyətinin Azərbaycan xalqının maraq və mənafelərinə xidmət etdiyini bilməyən yoxdur. Çünki bu, danılmaz faktdır. Sevindirici haldır ki, ümummilli liderimizin adını daşıyan fond da məhz bu amala xidmət edir. Fondun prezidenti, ölkənin birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən istənilən layihə birbaşa xalqımızın sosial rifahının yaxşılaşdırılması məqsədini daşıyır. "ASAN xidmət" və DOST həmin təşəbbüslərin bariz nümunəsidir.***

***DOST mərkəzlərinin yaradılması bizim sosial siyasətimizin mahiyyətini göstərir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır... Təsadüfi deyil ki, son illərdə bu sahədə çox böyük işlər görülüb. Həm DOST, həm də "ASAN xidmət" mərkəzləri bizim intellektual məhsulumuzdur. İndi "ASAN xidmət" öz intellektual məhsulunu ixrac edir, artıq bir neçə ölkədə bu layihələr icra olunur. Ümid edirəm ki, gələcəkdə DOST xidmətinin də fəaliyyəti başqa ölkələrdə maraq doğuracaq və təcrübə mübadiləsi üçün bizə müraciətlər daxil olacaq.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

Birinci xanım Mehriban Əliyevanın təşəbbüsü ilə irəli sürülən və Prezident İlham Əliyevin 2018-ci il 9 avqust tarixli fərmanı ilə yaradılan DOST konsepsiyası artıq müasir Azərbaycan həqiqətləri sırasında nəinki ölkəmizdə və regionda, hətta bütün dünyada özünəməxsus nüfuz qazanmışdır. Bu qurum haqqında olan məlumatlarda bildirilir ki, indiyədək DOST mərkəzlərində vətəndaşlara 130-dan çox xidmət göstərilirdi. İyulun 14-də Abşeron rayonunda fəaliyyətə başlamış növbəti DOST mərkəzinin açılışında isə qeyd edildi ki, burada vətəndaşlarımız məşğulluq, pensiya, sosial müavinət və təqaüdlər, sosial xidmətlər, əlillik, tibbi-sosial ekspertiza və reabilitasiya, sosial sığorta, əmək münasibətləri, həmçinin sosial-hüquqi, sosial-məişət xidmətləri, sosial-pedaqoji xidmət olmaqla, ümumilikdə, 152 adda xidmətdən rahatlıqla yararlana bilərlər.

Həmin gün xüsusilə vurğulandı ki, əhalinin rifah halının daha da yaxşılaşdırılması, bu istiqamətdə mühüm layihələrin həyata keçirilməsi, ölkəmizdə sosial müdafiə sisteminin etibarlılığının ən yüksək səviyyəyə çatdırılması Prezident İlham Əliyevin çoxşaxəli fəaliyyətinin əsas hədəflərindən biridir. Əlavə edildi ki, fəaliyyətində sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin qorunmasını rəhbər tutan DOST mərkəzləri qısa zamanda vətəndaşlarımızın etibarını qazanıb. Xatırladaq ki, Abşeron DOST mərkəzi ölkədə sayca beşincidir.



İndiyədək fəaliyyət göstərən dörd mərkəzin xidmətlərinə verilən müştəri və mütəxəssis qiymətləndirmələri əsasında gələnən yekdil rəy belədir ki, sosial xidmətlərin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması Azərbaycanın yeni brendinin spesifik cəhətləri sırasındadır. Yeni yaradılan Abşeron DOST mərkəzi də özündə bu xüsusiyyətləri tam əks etdirir. Ümumilikdə, 445 mindən çox şəxsin DOST mərkəzlərinə müraciəti nəticə etibarilə 97,4 faizlik göstərici ilə vətəndaş məmnunluğuna səbəb olub.

Abşeronda yaradılmış yeni mərkəzdə gün ərzində, təxminən, 400 vətəndaşın qəbul edilməsi üçün hər cür şərait yaradılıb. Bu prosesi 120 nəfərə yaxın işçi heyəti və 50 könüllü həyata keçirəcək. Xatırladaq ki, 2019-cu il dekabrın 24-də Xəzər rayonundakı 2 saylı DOST mərkəzinin açılışında iştirak edən Prezident İlham Əliyev ölkəmiz üçün olduqca mühüm əhəmiyyət kəsb edən bir məsələyə toxunmuşdu: "Şadam ki, burada işləyənlərin mütləq əksəriyyəti, demək olar ki, hamısı gənclərdir. Bu, Azərbaycan gənclərinin fədakarlığını və öz işinə bağlı olduğunu, məsuliyyətlə yanaşdığını göstərir. Eyni zamanda, bu, gənclər üçün də çox gözəl hazırlıq mərhələsidir".

Başqa bir xüsusi məqam isə ondan ibarətdir ki, hazırda dünya təcrübəsində oxşar layihələr olsa da, DOST mərkəzləri əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələri üzrə 150-dən çox xidmətin "bir pəncərə"dən təqdim edilməsinə imkan verən, əhatə dairəsi geniş olan, innovativ yenilikləri özündə birləşdirən nadir layihədir. DOST layihəsi artıq özünün dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında, tam şəffaf mexanizmlər üzərində qurulması ilə ölkəmizin bu sahədə yeni brendini formalaşdırıb.

Dövlət başçımızın fikrincə, bu mərkəzlərdə əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yaxşılaşdırılması ilə bərabər DOST-un başqa bir mühüm üstünlüyü də vardır: "Kadr hazırlığı və ölkəmizin gələcək inkişafı baxımından DOST mərkəzlərinin çox böyük faydası var. Yəni, əgər iqtisadi terminlə desək, biz burada multiplikativ səmərə görürük. Bu gün həm vətəndaşlara xidmət, həm sosial təminat sahələrində şəffaflıq, dürüstlük tətbiq olunur və çox ciddi islahatlar aparılır. Mən bu islahatları yüksək qiymətləndirirəm. Müasir xidmət növləri, eyni zamanda, davranış qaydaları, mədəni xidmət formaları, hazırlıq və təcrübə toplanması. Bütün bu amillər burada işləyən hər bir gənc üçün çox önəmlidir. Əminəm ki, siz artıq peşəkar, müasir düşüncəli kadr kimi öz gələcəyinizi quracaqsınız və daha yüksək pilləyə qalxacaqsınız".

Abşeronda açılan yeni mərkəzə gəlincə isə deyə bilərik ki, burada çalışanların bəxtinə daha bir mühüm vəzifəni yerinə yetirmək missiyası da düşmüşdür. Belə ki, yaxın iki ay ərzində DOST mərkəzində Prezident İlham Əliyevin bu ilin iyununda imzaladığı fərmanla yaradılmış Vahid Əlaqələndirmə Mərkəzi fəaliyyətə başlayacaq. Burada şəhid ailələrinə və qazilərə yeddi qurum üzrə 26 xidmət göstəriləcək, onların əlavə xərclərə və vaxt itkisinə yol vermədən bu xidmətlərə əlçatanlığı təmin ediləcək.

İnanırıq ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin , eləcə də DOST-un fəaliyyətini təmin edənlərin səyləri və məsuliyyətləri nəticəsində ölkə əhalisinin həssas qruplarına aid olan bütün insanların problemləri məhz DOST-casına həll ediləcək və müştəri məmnunluğu bilavasitə dövlət başçımızın tələb etdiyi səviyyəyə qaldırılacaq. Məmnun insanların Vətənində isə dövlət daha güclü, cəmiyyət daha sabit olur.

Uğur olsun, DOST-umuz!

*İttifaq MİRZƏBƏYLİ,*
*"Xalq qəzeti"*